# Estoniyalı deputatlar Xocalı soyqırımını hiddətlə qınadıqlarını bəyan ediblər



***Estoniya xalqının təmsilçilər məclisi olan Riyqikoqunun Azərbaycanla parlamentlərarası əlaqələr üzrə deputat qrupu Xocalı soyqırımının 30-cu ildönümü ilə əlaqədar bəyanatla çıxış edib.***

Bəyanatda bildirilir ki, deputat qrupu Xocalı qətliamı ilə bağlı Azərbaycan xalqının ağrısını bölüşür və dərin hüznlə başsağlığı verir: "Biz 1992-ci il fevralın 25-dən 26-na keçən gecə 600-dən çox dinc sakinin, o cümlədən çoxlu sayda qadın, uşaq və qocanın qətlə yetirilməsi ilə müşayiət olunan Xocalının işğalını qətiyyətlə pisləyirik. Bu kütləvi qətliamı törətmiş cinayətkarlar məsuliyyətə cəlb olunmalıdırlar". Bəyanat müəllifləri hesab edirlər ki, regiondakı bütün dövlətlərin suverenlik, ərazi bütövlüyü və beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığı hüququ var: "Biz tərəflərə regionun bərpasında güc diləyir və müxtəlif icmalar arasında sıx əməkdaşlığa çağırırıq. Biz Azərbaycan Respublikasının sabit sülhün təmin edilməsinə, işğaldan azad edilmiş ərazilərin inteqrasiyasına və bərpasına yönəlmiş səylərini dəstəklədiyimizi bildiririk".

Qeyd edək ki, Sven Sesterin başçılıq etdiyi deputat qrupuna Xocalı soyqırımının 30-cu ildönümünə münasibət bildirməsi təşəbbüsü ilə Estoniya–Azərbaycan Mədəniyyət Mərkəzinin sədri Niyazi Hacıyev müraciət edib.

Bəyanat Riyqikoqunun rəsmi saytında yerləşdirilib.

***Samirə ƏLİYEVA,***
***"Xalq qəzeti"***

Xalq qəzeti .- 2022.- 24 fevral.- S.6.